# SAVAŞIN GÖRÜNMƏYƏN TƏRƏFİ

## *Amid Səlimoğlunun "Kimsəsiz" romanı üzərində düşüncələr*

Gənc nəsil yazarlar arasında romanları ilə ədəbi mühitə daxil olan Amid Səlimoğlunun "Kimsəsiz" romanı elə kitabın üz qapığında verilmiş epiqrafla başlayır: "Qaçmaq canını qurtarmağın yeganə yolu deyildir. Savaşmağı da bilməlisən". Zənnimcə, elə əsərin əsas mahiyyəti də bu epiqrafın ifadə etdiyi məna üzərində qurulub. Müəllif özü əsərini hansı janrda, necə yazmaq, mövzunu hansı hadisələrlə əhatə etmək üzərində düşünərkən yaradıcılıq yolunun haralardan necə keçəcəyini heç düşünmür də. Çünki əsər boyu hadisələr ədəbi qəhrəmanı haraya, necə çəkirsə, elə həmin istiqamətdə də cərəyan edir. Doğrusu, əsərin ilk səhifələri ədəbi qəhrəmanın tərəddüdlərindən keçir və bu vurnuxmalar yazıçının da ruhundan keçir. Yazıçı hadisələrin axarından kənarda qalmır. Hətta yeri gələndə özünün də hadisələrin iştirakçısı olduğunu etiraf edir.

Kriminal hadisələr, cinayətkarlıqla mübarizə. Ən başlıcası, demək olar ki, sayı bilinməyən qətl hadisələrinin törənmə səbəbləri və bu müəmmaların açılması üçün əsərin qəhrəmanı xüsusi vəziyyətlərə hazırlıq mərhələsi keçir. İlk baxışdan biz Aqata Kristinin, Konan Doylun obrazlarını yada salan Emin Səfərovun fəhmini, intuisiyasını izlədikcə belə qənaətə gəlmək olur ki, həssas kəşfiyyatçının aça bilmədiyi hər hansı sirr yoxdur. Demək, bütün müəmmalar üçün açar var, ancaq bu açarı əldə edə bilən şəxsin özü tapmalıdır. Əsər çox ciddi bir problem üzərində qurulub. Kimsəyə sirr deyil ki, indi dünya az qala gizli narkomafiyaların əlində əsir olub. Elə bizim ölkəmizdə də gündə onlarla adam mafiya toruna düşür. Bəlkə daha çox adam insanlıq əlehinə yönəlmiş cinayətlərin qurbanlarına çevrilirlər. Onların bir çoxu cinayət aləminin aparıcıları kimi tapılır, həbs olunur, cinayət məsuliyyətinə cəlb edilir. Əsərdə biz həm mübarizə motivlərini görürük, gənclərin cinayətə qarşı dirəniş gücünü müşahidə edirik, həm də bu gənclərin şəxsi həyatları ilə də tanış olmaq imkanı qazanırıq. Əsərin üç əsas obrazı üzərində dayanmaq bəs edərdi ki, mürəkkəb psixloji hadisələrin burulğanlarından keçə biləsən.

Müəllif özü də əsərin əvvəlində həmin qəhrəmanları xatırladır. Onların adlarını qeyd edir. Emin Səfərovun, Leyla Qaracanın, Amir Riskulbekovun İstanbulda bir araya gəlmələri ilə bağlı düşüncələrin mahiyyətinə varanda anlamaq olur ki, demək, bu adamlar nəhəng cinayət aləminə qarşı mübarizə aparan "gizli otağın" tapşırıqlarını yerinə yetirməlidirlər. Elə bu səbəbdən də onlar İstanbulda bir araya gəlirlər. Bütün əsər boyu müəllifi bir əsas məsələ düşündürür. O türk mənəvi mühitini nəhəng narkomafiyasının cəngindən xilas etməyin yolları hansılardı? Birmənalı demək olar ki, bu ədəbi qəhrəmanları ayrı-ayrı cinayət hadisələri demək olar ki, maraqlandırmır. Onlar nəhəng mafiyanın nüvəsinə daxil olmaq üçün yollar arayırlar. Yuxarıda qeyd etdiyimiz kimi onlar elə əslində bu məqsəd üçün hazırlanıblar.

Əsərdə bir maraqlı ideya da var; nəhəng mafiya sisteminə qarşı mübarizə aparmaq üçün gizli xidmət orqanları hələ uşaqlıq vaxtından istedadları, fəhm və bacarıqları ilə fərqlənən yeniyetmələri nəzarətə götürür, müvafiq məqsəd üçün onlara təlim keçir. Bir az da dəqiqləşdirsək, cəmiyyətin görünməyən üzündə mübarizəyə hazırlayırlar. ...Və elə buradaca bir məqama da diqqət yetirmək lazımdır. Amid Səlimoğlunun ədəbi qəhrəmanları robot deyil. Baxmayaraq ki, onlar gizli otaq tərəfindən müvafiq məqsəd üçün hazırlanıblar. Ancaq bütün hallarda onlar cəmiyyətdən təcrid olunmayıblar. Cəmiyyətin istək və arzularının daşıyıcıları kimi əsərdə kifayət qədər aydın görünürlər. Doğrudur, gizli otağın tapşırığına əsasən Emin Səfərov və Leyla Qaraca formal evlənmə, ailə qurma yolu keçməlidir. Amma iş elə gətirir ki, onlar insani hisslərini bir-birindən gizləyə bilmir. Münasibətlər saxta ünsiyyət müstəvisindən həqiqi sevgi müstəvisinə keçir.

Əsər boyu hər addım oxucunun xüsusi həyəcanları ilə müşayiət olunur. Hər an oxucu xüsusi nigaranlıqla növbəti mərhələni izləyir. Axı bu sirlərin, müəmmaların axırı hara gedib çıxacaq. Zənnimcə, əsərdə təsvir olunan binanın damının kənarı ilə yerimək, nazik sim üstündə hərəkət etmək motivləri əsərə



təsadüfi qeyd edilməyib. Müəllif bununla dəhşətli narkomafiyaya qarşı mübarizə aparan gənclərin həm də amal və əqidə uğrunda mübarizədə hansı təhlükələrdən keçdiyini göstərmək məqsədi daşıyır. Zənnimcə, əsərin ən xarakterik parçasına diqqət yetirməklə biz obrazların həm əqidə mübarizələrini, həm də onların insani hisslərlə yaşam yolunu aydın təsəvvür edə bilərik. Emin Səfərov növbəti psixoloji əməliyyat zamanı Leyladan gələn telefon zənginə cavab verməli olur. Bu mənzərə maraqlı dialoqlarla təsvir edilir. Onu da deyim ki, yazıçı əsər boyu canlı dialoqlara çox üstünlük verir və beləliklə, biz artıq həm tapşırığa əsasən evli cütlük rolunu oynamalı olan, həm də həqiqi sevgi hissləri ilə bir-birinə bağlanan gənclərin maraqlı situasiyadakı vəziyyətlərini yazıçının mətni əsasında müşahidə edə bilərik: "*-Hardasan?*

*-Çıx binanın damına.*

*Leyla qısaca olduğu yeri deyib telefonu söndürdü. "Bu saatda damda nə edir görəsən?" - deyə dilimin ucunda sözləri pıçıldadım. Bina beş mərtəbəli olduğundan lifti yox idi. Ona görə məcbur ayaqla qalxmalı idim. Tez pilləkənləri çıxaraq onun yanına tələsdim.*

*Beşinci mərtəbəyə çatıb qapını açaraq dama qalxdım. Leyla damın kənarında oturmuşdu. Asta addımlarla yanına getdim.*

*-Burda neynirsən?*

*-Otur.*

*Mən onun yanında oturaraq ayaqlarımı aşağı doğru salladım. Biz bir müddət danışmadan eləcə ayaqlarımızı sallayaraq göydəki ulduzları seyr etdik. Sərin meh əsirdi.*

*-Nə oldu? Dəmirçidən nəsə öyrənə bildin?*

*-Yox. Yerləşdiyi otelin qarşısında bir neçə saat gözlədim. Hava qaralan kimi də onun qaldığı otağa getdim. Ancaq onu çoxdan öldürmüşdülər. Mən də korpeşman geri qayıtdım.*

*-Elə bu?*

*-Başqa... Hə bir də məcbur olub iki adamını da öldürdüm. Amirlə danışmışam, kamera görüntülərini yox edəcək.*

*-Yaxşı".* Qısa suallar, cavablar gənclərin həyatının necə gərgin bir mərhələyə daxil olduğuna işarədir. Onu da demək lazımdır ki, dünyanı öz əsarətinə almaq istəyən mafiyaya qarşı mübarizənin savaşçıları olan bu gənclər elə hazırlanıblar ki, onlar bir-birini çox asanlıqla anlayır. Hətta çox cüzi işarələrlə, qısa, müxtəsər ifadələrlə bir-birinə informasiya ötürə bilirlər. Müəllif bununla cəmiyyətə belə bir məsələni mesaj edir ki, biz gündəlik həyatımızda sakit, səssiz, bəlkə də əmin-aman olaraq yaşamaqdayıq. Amma bilmirik ki, təsəvvür edə bilmirik ki, bu əmin-amanlıq gizli cəbhədə mübarizə aparan, savaşan, taleyini hər an təhlükə qarşısına atan insanların sayəsində mümkün olur. Müəllifin maraqlı müşahidələri ilə müşayiət olan bu görüş səhnəsini bir az da dəqiq, aydın təsəvvür etmək üçün onların hiss və həyəcan dolu düşüncələri ilə tanış olmaq kifayətdir ki, gizli cəbhədə adamların sanki mənəvi-psixoloji minalar üzərində yeridiyini aydın təsəvvür edə bilək. Müəllif gizli cəbhə qəhrəmanlarının taleyini, onların həyat yolunu, onların insanlıq uğrunda apardıqları mübarizənin incə məqamlarını maraqlı ifadələrlə diqqətə çəkir.

Biz gənclərin öz nitqlərindən, düşüncələrindən onların yaşadıqları həyatın həmin dövrdəki mənzərəsini necə görürüksə, həm də onların bu cəbhədə işləmək üçün necə seçilmələrinin də sanki şahidi oluruq. Leyla kimsəsizlər evində böyüyüb. Amma onun iti zəkası, düşüncə imkanları gizli cəbhə üçün döyüşçü hazırlayanların diqqətindən yayınmayıb. Leyla məhz belə bir yol üçün seçilib və biz hündür binanın damı üstündən şəhərə baxan iki gəncin düşüncələri ilə onların keçmişlərini də görə bilirik. Sözün həqiqi mənasında Leylanın həyat yolu səmimi bir düşüncə axarı ilə təsvir olunur. Bu təsvir, şübhəsiz, asanlıqla yazıla bilməzdi. Bunun üçün müəllifin ardıcıl, sözün həqiqi mənasında gizli həyatın mahiyyətini öyrənən inadlı axtarışlarının bəhrəsi kimi qəbul etməliyik. Beləliklə, biz Leyla ilə daha yaxından tanış oluruq: *"Ağzımı büzərək verdiyi suallara cavab verdim. Sonra başımı qaldıraraq yenidən səmaya səpələnmiş buludları izləməyə başladım.*

*Vaxt gedirdi. Bizsə gah göydəki ulduzlara, gah da ara-sıra küçədən keçən adamlara baxır, sadəcə susaraq onları izləyirdik.*

*-Uşaq vaxtı hündürlükdən qorxurdum, - deyə Leyla sakitliyi pozdu. - Bilirsən, mən kimsəsizlər evində böyümüşəm. Altı yaşına qədər. Mənim heç vaxt ailəm olmayıb. - Yenidən susaraq bir neçə saniyə uzaqlara baxdı. Mənsə onu izləyirdim. - Altı yaşımda məni kimsəsizlər evindən alıb təşkilat üçün gizli olaraq yetişdirməyə başladılar. Kimsəsizlər evində olanda özümü lazımsız biri kimi görürdüm. Həmişə fikirləşirdim ki, atamla anama lazım olsaydım, yanlarında olardım. Pəncərədən baxdığımda uşaqlar görərdim əlləri ata-analarının əllərində. Mən onlardan biri deyildim. Ona görə pəncərədən belə baxmağa qorxurdum. Ancaq altı yaşımdan sonra hər şey dəyişdi. Lazımsız olmadığını anladım. Hər gün özümə daha çox inandım. İlk başlarda sevginin, sevməyin nə olduğunu mənə öyrətdilər. Bu adi sevgi deyildi. Vətən sevgisi idi. Heç bir sevgi ilə müqayisə belə olunmaz. Sonra yavaş-yavaş bütün elmi, dini, hərbi bilikləri öyrənməyə başladım. Lakin bir şeyi hələ öyrənə bilməmişdim. Qorxmamağı. Mən hələ də qorxurdum. Qorxularıma qalib gələ bilməmişdim".* Bəlkə də bizə elə gələ bilər ki, gizli cəbhənin adamları adi insani hisslərdən, doğmalıq duyğularından məhrumdurlar. Onlar əqidə, amal uğrunda mübarizəyə elə hazırlanıblar ki, sanki onlar üçün kövrəklik, insani hisslərin təsiri altında gözü dolmaq motivləri yaddır.

Gənc romançı Amid Səlimoğlu "Kimsəsiz" romanındakı bu cür motivlərlə iki məsələni dəqiq müşahidə obyektivinə götürə bildiyini sübut edir. O, bu əsəri ilə sübut edir ki, gizli mübarizə cəbhəsinin, demək olar ki, bütün istiqamətləri ilə bağlı məlumatlıdır. Gizli cəbhənin əsgərlərini kifayət qədər tanıya bilib. Onları dəqiq və aydın müşahidə edə bilib. Başqa sözlə, gizli mübarizə həyatını reallığa uyğun öyrənib.

İkinci amili də qeyd etməliyik. Bu da Amid Səlimoğlunun gəncliyinə baxmayaraq, hər bir insanın fərdi düşüncə arenasına daxil ola bilmək istedadıdır. O, bütün varlığı ilə insanı özünün fərdi arenasında görür. Ona bir həqiqət güzgü kimi aydındır ki, hər bir adamın insani hissləri təkrarsızdır. Bənzərsizdir. Yol, düşüncə, müəllifi o yerə aparır ki, orada ümumi mənafe uğrunda (bəlkə də bəşəri dəyərlər uğrunda) mübarizə aparan gənclərin fərdi həyat mənzərəsini də oxucusuna çatdıra bilir: *"Leylanın gözləri dolmuşdu. Səsi titrəyirdi. Onu belə görməyə dayana bilmirdim. Titrək səslə danışırdı.*

*- Yadımdadır. Bir gün gecə yatdığım yerdə məni oyadıb qara parçayla gözlərimi bağlamışdılar. Çox qorxmuşdum. Mənə elə gəlirdi ki, buradan da məni ayıracaqlar. Gözlərimdən yaş sel kimi axırdı. Əllərindən qurtulmaq üçün dartınır, baş götürüb qaçmaq istəyirdim. Ancaq məni hara apardıqlarını bilmirdim. Hava çox soyuq idi. Üşüyürdüm, bunu büruzə verməmək üçün dişlərimi bir-birinə sıxmışdım. Bir müddət sonra özümü sakitləşdirdim. Səssizcə onların istədiklərini edirdim. Nə qədər vaxt keçdiyindən xəbərim yox idi. Uzun yol qət etdikdən sonra məni gözübağlı bir yerdə buraxıb yox olmuşdular. Bunu ilk öncə başa düşə bilməmişdim. Ətrafımda heç kimin olmadığını anlayanda gözümdəki parçanı açdım. Gözlərimə inanana bilmirdim. Bir sıldırım qayanın kənarında qurulmuş taxtın üzərində idim. Bütün bunların nə demək olduğunu isə qarşı tərəfdən gələn səslə anladım. Qarşıdakı sıldırım qayadakı qadının səsləri qulaqlarımı kar edirdi. "Sən qorxaqsan!" - deyə qışqırmağa başladı. Mənsə yenidən ağlamağa başladım. "Sən aciz bir qorxaqsan!" - deyə ikinci dəfə qışqırdı. Göz yaşlarımı saxlaya bilmirdim. Soyuq külək bədənimi əsir götürmüşdü".* Bu, adi mənzərə deyil. Təlim prosesindəki sərtliyin göstəricisidir. Leylanın hansı təlimdən keçdiyi onun düşüncə xatirələrində bu cür üzə çıxır. Amma eyni zamanda həm də onun xarakterinin formalaşması da məhz bu düşüncələrdə kifayət qədər görünə bilir. Əslində, müəllif bir yazıçı kimi qəhrəmanını havadan gətirmir. Onun keçdiyi həyat yolu ilə bağlı olaraq xarakterinin formalaşmasını qanuna uyğun nəticə kimi göstərir. Leyla savaş üçün hazırlanıb. Onun xarakteri təlim zamanı bişib. Ancaq onun insani keyfiyyətləri də qabalaşmayıb. O, incə təbiətini, sevgidə həssaslığını qoruyub saxlayıb. Beləliklə qorxmayan Leyla, həm də sevən ürək obrazıdır:

**Davamı 15-ci səhifədə)**

# SAVAŞIN GÖRÜNMƏYƏN TƏRƏFİ

(Əvvəli 14-cü səhifədə)

*“Əlimin tərsi ilə göz yaşlarımı silməyə çalışsam da faydası yox idi. Fikirləşirdim ki, o düz deyir. “Sən həyatının tamamını qorxaraq keçirəcəksən. Çünki sən özünə inanmırsan. Səndə olan gücə inanmırsan. Qorxaq bir siçan kimi qaçıb gizlənəcəksən. Amma sən bu deyilsən!”. Onun sözlərinə qulaq asmamaq üçün qulaqlarımı tutub dizlərimi yerə qoydum. Hıçqıraraq ağlayırdım. Özümü çarəsiz hiss edirdim. “Sən anlaya bilmirsən ki, bu vətəni qorxularla müdafiə etmək olmaz. Vətənimizi qorumaq ən müqəddəs borcumuzdur. Sən bunun üçün buradasan. Qorxaqlar sadəcə ölərlər. Ancaq qəhrəmanlar daim qəlblərdə yaşar. Sən öz yolunu seçməlisən. Əgər yola davam etmək istəyirsənsə, mənim yanıma gəl!” - deyə yenidən mənə qışqıraraq səsləndi. “Necə?”, - mən güclə də olsa, ona cavab verə bildim. “Ayağını önə at, biləcəksən”, - deyə qarşıdan cavab gəldi. Mən qalxaraq aşağı doğru baxdım. Qaranlıq olduğundan heç nə görmək mümkün deyildi. Ayağımı ehtiyatla önə uzadıb boşluğu yoxladım. Ayağım nazik simə toxundu. Qarşıdan gələn səs bunu nəzərdə tuturdu. Buna inana bilmirdim. Mən ağlayırdım. Mənim səkkiz yaşım vardı. Bunların heç birinə inana bilmirdim. Yuxu olsaydı, kabus olsaydı, oyansaydım. Ancaq heç biri deyildi. Bu gerçək idi. Qorxurdum. Geri qayıtsaydım, hər şey elə oradaca bitəcəkdi. Bu zaman sanki kimsə qulağıma pıçıldayaraq irəli getməyimi dedi. Qorxularıma qalib gəlmək üçün onların üzərinə getməliydim. Ayağımı nazik simin üzərinə qoyaraq irəliləməyə başladım”.* Leylanın damın kənarı ilə yeriməyi həyatı necə riskə qurban verə bilmək cəsarətinin nümunəsidir. Bununla da biz bu gənclərin simasında həyatla əqidəni necə əvəzləməyin mümkünlüyünü görürük. Bütün hallarda hələ uşaq yaşlarından qayğısız uşaqlıq həyatından ayrılmış olan bir gəncin tale yolunun seçimində onun həm də aydın düşüncəsini görürük.

Yəqin ki, Amid Səlimoğlunun nəzərində gizli cəbhənin belə əsgərləri olmasaydı, dünya nəinki mafiyanın əsir olardı, həm də mafiya dünyanın idarəçiliyini ələ keçirə bilərdi. Hər halda bu gün mafiya kifayət qədər güclü olsa da, ayrı-ayrı dövlətləri öz iradəsinə tabe edə bilmir, başqa sözlə, dünyanın idarə olunmasını əlinə keçirə bilmir. Bir simin üstündə, uçurum başında yeriyə bilən gənc üçün əqidə uğrunda, amal uğrunda mübarizə motivi əsas idealdır. Bütün hallarda biz Emin Səfərovu kifayət qədər təmkinli görürük. Hadisələrə soyuq başla yanaşmaq məharətinin sayəsində o, əqidə dostlarının da hörmətini və inamını qazanır. Onlar bütün hallarda Amir Riskulbekova hesabat verirlər. Və, deyəsən, bu gənclərin təlimatlanmasında əsas mərkəz olan gizli otaq narkomafiyanın şaxələnən cinayət sisteminin Turan dünyasına uzanan yollarını kəsməyə yönəlikdir və onlar bu istiqamətdə kifayət qədər risklidirlər, eyni zamanda həm də güclüdürlər. Leyla özünün bu həyata hazırlanması haqqında düşüncələrini danışır. Hətta bunun üçün o, damın kənarı ilə yeriyərək gizli mübarizəyə hazırlıq mərhələsində hansı cəsarətə sahib olduğunu da nümayiş etdirir: *“Leyla bir anda ayağa duraraq damın kənarı ilə yeriməyə başladı. Sanki ip üzərində yeriyirdi.*

*-Külək aman vermirdi. Mənsə artıq ağlamırdım. Elə bil qorxmurdum. Ancaq büdrəsəydim, yıxılsaydım əgər, sonu ölüm idi. Nazik sim ayağımı kəsirdi. Mənsə buna fikir vermədən irəliləyirdim. Qarşıdan səs gəlmirdi. O da susaraq məni izləyirdi. Mən 15-20 metrlik iki qaya arasındakı boşluğa nazik sim üzərindən keçərək getməli idim. Özümə inanmağa başlamışdım. Bütün qorxularımdan xilas olmuşdum. Qarşıdakı qayaya çatdığımda artıq mən başqa mən idim. Yenidən torpağa ayaq basdığımda bayaq mənə səslənən qadın həyəcanla məni gözləyirdi. - Leyla dayanaraq bir neçə saniyə susdu, sonra yenidən damın kənarına oturdu. Mən də onun yanına gələrək oturdum. - Məni qucaqladığında göz yaşlarım danışmağa başladı. Həyatımın yeni sınağından da keçə bilmişdim. Qorxularıma qalib gəlmiş, onları sıldırımdan aşağı atmışdım. Sonralar öyrənmişdim ki, heç orası sıldırım qaya belə deyilmiş. İki qaya arasındakı boşluğun yerlə məsafəsi də iki metr olmazmış. Yəni yıxılsaydım belə mənə heç nə olmayacaqdı.*

*-Sən mənim tanıdığım ən cəsur qadınsan. -Əlimi çiyninə qoyaraq dedim.*

*Onun gözlərinin içi qızarmışdı. Ağlamamaq üçün özünü güclə saxlayırdı. Dərdinə dərman ola bilmək üçün əlimdən nə gəlsə edərdim.*

*-Bu qədər şeyi bilirsən niyə danışdım?*

*-Niyə?*

*-Məni qorumaq lazım deyil. Mən həmişə öz dərdimə bir əlac tapa bilmişəm. Bu sən olmadan öncə də belə idi, sən olandan sonra da belə olaraq qalacaq.*

*Onun nəyə işarə etdiyini başa düşmüşdüm. Dəmirçinin arxasıyca gedərkən onu aparmamışdım. Bilirdim ki, xoşagəlməz nəsə ola bilər. Ona görə bir bəhanə ilə onu evə göndərmişdim. Amma bu onun nəzərindən qaçmamışdı.*

*Mən üzümü aşağı dikərək susmağı üstün tutmuşdum. O da qarşıya baxır, heç bir kəlmə belə kəsmirdi”.* Emin Səfərovun dinləmək bacarığı, təmkinli münasibəti göstərir ki, onun özü də Leyla qədər gizli cəbhədə savaşmağa hazırlıqlı gəlib. Ayrı-ayrı məqamlarda gənclərin hissi-emosional duyğuları bir daha göstərir ki, zombiyə çevrilməyən, aydın düşüncə, sağlam əqidə üçün hazırlanan savaşçı insanlıqdan çıxmır. Onun bütün mənəvi səfərbərlik yolu həm də öz insanlığını qorumağa xidmət edir. Ayrı-ayrı məqamlarda bu gənclər ölüm və qətl hadisələri ilə qarşılaşırlar. Bütün hallarda onlar kifayət qədər soyuqqanlıdırlar. Onlar yaxşı başa düşürlər ki, baş verən hadisələr nəhəng sistemin sadəcə üzə çıxan elementləridir. Ona görə də onlar öz yollarında sabit qədəmdirlər. Və ən başlıcası, oxucunu, xüsusilə mənəvi olaraq təmin edən cəhət bundan ibarətdir ki, bu gənclər bütün gərgin, gizli savaş mühitində olsalar da, sevmək imkanlarını da itirmirlər. Sevgidən kənarda deyillər. Sanki onlar yaxşı başa düşürlər ki, elə insanlığı xilas edəcək əsas yollardan biri də sağlam düşüncə ilə sevməkdir. Görünür Emin Səfərovun özünü də robot olmaqdan xilas edən onun sevgi hisslərinə sadiq qalmasıdır. Doğrudur, bu gənclərin hər biri özünü ayrı-ayrılıqda qorumaq imkanlarına malikdir. Müəllifin özünün kitab üçün seçdiyi epiqrafda qeyd etdiyi kimi, onlar bütün təhlükələrdə asanlıqla qaçıb canlarını qurtarmağa qadirdir. Amma onlar qalıb açıq savaş yolunu tuturlar. Əlbəttə, açıq sözü burada şərtidir. Elə ona görə də əsər robotların savaşı kimi yox, hisslərə, duyğulara malik, yüksək insani keyfiyyətlərin daşıyıcısı olan gənclərin romanı kimi təsir bağışlayır. Bu gənclər ailələrindən, mühitlərindən ayrılıblar. Gizli cəbhədə savaş üçün hazırlanıblar. Bəlkə də yazıçı üçün kimsəsizlik motivi buradan gəlir. Amma bir əsas məsələni unutmaq lazım deyil. Bu gənclərin əsas doğmaları bəşər nəslidir. Onlar üçün mübarizə ona görə müqəddəsdir ki, onlar bəşər nəslini, yəni doğmalarını cinayət aləmindən hifz etmək uğrunda vuruşdadırlar: *“Ancaq susmaq bir çarə deyildi.*

*-İnsan elə bilir ki, ölüm dedikləri şey yalnız ruhun bədəndən çıxması ilə gerçəkləşir. Ruh bədəni tərk edir və sənin cansız bədənin lazımsız hal alır. Bəs ölmədən ölmək?! Bunu düşünən olubmu, görəsən?*

*-Bizlər hər gün ölürük, yeni bədənlərdə gözlərimizi açmaq üçün. - Leyla üzünü mənə çevirib baxdı. - Sən kimsən?*

*-İnan, bunu hər aynaya baxdığımda özümə sual verirəm. Mən kiməm? 10 yaşım olanda mən də bir çoxları kimi sadə məktəbli idim. Səhər məktəbə gedər, dərs oxuyar, dostlarımla oynayar, dərs qurtardıqdan sonra yenə evə, ailəmin yanına qayıdardım. Bütün dərdim dərsim, qiymətlərim idi. Qaranquş yazı gətirdiyi kimi gülüşüm də bir çoxlarına xoşbəxtliyi gətirərdi. Ta ki bir gün mənə “sən seçilmiş adamsan” dediklərinə qədər. O zaman hər şeyin sadəcə kiçik bir oyundan ibarət olduğunu sanırdım. Mən hər bəhanə ilə evə getmir, gizli şəkildə təlim keçirdim. Anamın ən böyük arzusu mənim universitetə qəbul olmağım idi. Hüquqşünas olmağımı istəyirdi. Olmuşdum. Ancaq o bilmədi. Elə bilirdi, oxumuram, tənbələm, savadsızam. Universitetdən kəsildiyimi biləndə onun üzünü görməli idin. İndiyə kimi gözümün önündən getmir. Boynu bükülmüşdü, mənə bildirməsə də, gizlicə ağlayırdı. Bütün dostlarım qəbul olduqlarına görə sevinirdi, mən isə sevinə də bilmirdim. Çünki bunu heç kim bilməməli idi. Hərbi xidmətimi cəbhə bölgəsində keçirmişdim. Yəni belə lazım idi. Valideynlərimi yanıma gəlməyə qoymurdum. Tam il yarım nə onlar məni gördü, nə də mən onları”.* Doğrudur, bəzi məqamlarda gənclərin düşüncələrində ikili motiv də üzə çıxır. Emin Səfərovun özü də Leyla kimi mühitindən ayrıla bilmiş adamdır. Yəqin ki, ayrıla bilmək ifadəsi oxucu üçün kifayət qədər informasiya verir. Yəni əsər boyu Leyla hansı fədakarlıqla gizli cəbhə üçün hazırlanıbsa, elə Emin Səfərov da məhz bu yolu keçib. Doğrudur, Emin Səfərov Leyladan fərqli olaraq ailədən ayrılıb. Əgər belə demək mümkünsə, bu həyat onun üçün o qədər də asan başa gəlməyib. O, özünə məqsəd seçib. İstanbula da təkcə gizli savaş əsgəri olmaq üçün yox, həm də dünyanı cənginə keçirmək istəyən mafiyanın sirlərini öyrənmək üçün gəlib. O yaxşı başa düşür ki, döyüşçüdür, amma o həm də yazıçıdır. Gizli aləmin iç üzünü görmək və yazmaq istəyir. Və yeri gələndə o, bu missiyanın hətta etiraf da edir. Özünün əsil adını da gizlətmir: Amid Səlimoğlu.




Amid Səlimoğlu - Emin Səfərov əsər boyu ikiləşmir. Əgər belə demək mümkünsə, o, yazıçı olaraq Emin Səfərovun həyatını tamamlayır. Həm də biz Emin Səfərovun timsalında Amid Səlimoğlunun bir yazıçı olaraq nə istədiyini bəşər nəsli uğrunda mübarizədə bir savaşçı kimi aydın mövqeyini görürük.

Yazıçı bir çox hallarda maraqlı dialoqlarla oxucunu darıxmağa qoymur. Qəhrəmanların bir-biri ilə ünisyyəti zamanı onların canlı təbiətlərini göstərmək imkanını əldən vermir: *“Vətəni qorumaq üçün kimsə öz həyatını heçə sayacaqdısa, o kəslər bizlər idik.*

*-İndi necə, ailənlə danışırsan?*

*-Yox.*

*-Niyə?*

*-Bunu məndən soruşma. Sənə səbəbini deyəcəyimə söz vermirəm. Ancaq deyə bilsəm ilk sənə deyəcəm.*

*-Yaxşı. - Gülümsəyərək başını yellədi.*

*-Əlinin içindəki çapıq izi... - Sınayıcı nəzərlərlə ona baxdım.*

*-Bunu deyirsən? - Leyla ovcunu göstərərək dedi. - Mənim həyatım da sınaqlarla keçib. Acının nə olduğunu bilmək üçün bıçaqla kəsmişəm. Daha doğrusu, əmr belə idi. İnsana daha əziz olan onun acılarıdı. Acılarıla yaxın olacaqsan ki, səni çox incitməsin.*

*Leyla danışdıqca külək saçlarını dağıdır, mənimsə qəlbimə toxunaraq bədənimi isidirdi. Mən ona indi daha çox bağlanmışdım. Onun gözlərini gözlərimi qırpmadan izləyirdim. Deyəsən, o da bunu hiss etmişdi.*

*-Nə olub?*

*-Çox gözəlsən.*

*-Bu sözü dediyin neçənci qadınam? - Yanaqları qızardı.*

*-Düzünü desəm, sayını itirmişəm. - Gülərək cavab verdim. - Ancaq heç birində səmimi deyildim.*

*-İnandırmağı bacarırsan.*

*-Yalan demirəm. Biz burda deyil də, başqa həyatlarda, başqa simalarda qarşılaşsaydıq, çox gözəl cütlük ola bilərdik.*

*-Neyniyək, bir seçimimiz var.*

*-Sən mənim qarşıma təsadüfən çıxmamısan. Bu bir işarə də ola bilər.*

*-Bilmirəm. Xəyal qurmaq bizlik deyil.*

*-Ürəyimizin qapısını döyən qonaq eşqdirsə, min can fəda eylərəm.*

*-Mən...*

*-Hşş. Sakit... Heç nə demə.*

*Barmağını dodağına toxunduraraq susmasını xahiş etdim. O isə yaşıl gözlərini üzümə zilləyərək heç bir söz demədi. Əlimlə saçlarını oxşayır, gözlərimi gözlərindən bir saniyə belə çəkmirdim. Mən ürəyimin səsinə qulaq asırdım. Bunu neçə dəfə etdiyimi heç xatırlamıram. Bəlkə də ilk dəfə idi. Ona yaxınlaşaraq dodaqlarından öpdüm. Həyəcan alov kimi dodaqlarıma yığılmış, dodaqlarımı yandırmışdı. İlk öpüş bizi bir-birimizə daha yaxın etmişdi. O gözlərini məndən qaçırır, gözlərimin içinə baxmaqdan utanırdı. Mən bunun nə demək olduğunu qəlbimin dərinliyində hiss etmişdim. Yenidən dodaqlarımız qovuşanda isə əbədi olaraq ayrılmamağa söz vermişdilər. Bu, həyatın eşq deyilən oyunu idi”.* Beləliklə, biz Emin Səfərov timsalında bu gənclərin ideal aydınlığını elə “Vətəni qorumaq üçün kimsə öz həyatını heçə sayacaqdısa, o kəslər bizlər idik” tezisində tam qavraya bilirik.

Həyat sirlərlə doludur. Bu sirlərin bir çoxu bəşər nəslinə açıq cinayətlərlə müşayiət olunur. Narkomafiya insan talelərini heçə sayaraq cəmiyyətin içərilərinə doğru can atır. Ancaq onların qarşısında sağlam düşüncəli insanların canlı sipəri var. Biz Leyla Qaraca ilə Emin Səfərovun timsalında həm müqəddəs amallar uğrunda mübarizə aparan canlı insan obrazlarını görürük, həm də sağlam sevgi ilə bir-birinə bağlanan gəncləri görürük.

Amid Səlimoğlunun “Kimsəsiz” romanı sirlərlə dolu cinayət aləminin üzərindəki qaranlıqları qovub dağıtmaq gücündədir. Zənnimcə bu əsər üzərində çoxseriyalı, maraqlı filmlər də çəkmək olar. Əsər buna kifayət qədər imkan verir.

A.Səlimoğlu istedadlı yazıçıdır. Zənnimcə, o gələcəyin məşhur romançılarından olacaq.

Ə. Xələfli

**14.03.2023**